# Şeirimizin tut ağacı

## Böyük sənətkarımız şair-publisist Musa Ələkbərlinin xatirələrində



Rəsul Rza - 100

**Fikir-xəyal məni ötən günlərə, on üç yaşıma, yenicə şeir yazmağa başladığım illərə apardı. Məktəbimizin kitabxanasında oxumadığım kitab qoymamışdım. Əlimə keçən bədii kitabı acgözlüklə oxuyur, özümə doğma, hisslərimə yaxın nəsə tapanda qol-qanad açırdım. Aşıq Ələsgərin, M. P. Vaqifin, Səməd Vurğunun kitablarını əlimdən yerə qoymurdum...**

Bir gün Rəsul Rzanın da bir kitabını aldım. Müharibə illərində çap edilən bir kitab idi. Adını unutmuşam, şeirləri, müharibədən bəhs edən bir dram əsəri, cəbhə xatirələri, məqalələri cəmlənmiş bir kitab idi.

Uzun müddət bu kitab da əlimdən düşmədi. Rəsul müəllimin müharibə illərində yazdığı son dərəcə kövrək, səmimi şeirlər qanıma, iliyimə hopur, məni vurulduğum şeir-sənət dünyasına daha da yaxınlaşdırırdı. İndi də yaddaşımda qalan və heç vaxt unuda bilməyəcəyim bu sətirləri elə o vaxtlar əzbərləmişdim:

*Külək qarı səpələr, Bəxtiyar,*
*Ağ geyinmiş təpələr, Bəxtiyar.*
*Kaman çalan kimdir o, Bəxtiyar?*
*Ürəkmi, ya simdir o, Bəxtiyar?!*

Mən bu kitabı oxuduqca, öz gözümdə böyüyür, böyük bir poema yazmaq fikrinə düşürdüm. Eləcə fikirdə-xəyalda idim. Oxuyub təsirləndiyim şeirlər, müharibədən bəhs edən bu pyes məni müharibə mövzusunda fərqli bir süjet qurmağa sövq edir, özümə, sözümə dərin bir inam oyadırdı.

Elə bu təəssürat altında fərqli bir süjet xətti qurub, dramatik poema yazmaq eşqinə düşmüşdüm. Özü də müharibə mövzusunda.

Rəsul Rzanın müharibə mövzulu şeirləri, o pyesi müharibə mövzusunu mənə doğmalaşdırmışdı. Mən özümü o döyüşlərin iştirakçısı hesab edirdim və mənə elə gəlirdi ki, o poemanı uğurla tamamlaya bilərəm. Bu inamı mənə Rəsul Rza vermişdi, onun qanıma, ruhuma iş-



**"Mədəni-maarif" jurnalının baş redaktoru, köhnə dostum Yaşar Vəliyevdən aldığım təklif məni xeyli düşündürdü: "Bilirsən də bu il Rəsul Rzanın yüzilliyi qeyd olunacaq, prezident sərəncamı var, istəyirəm bizim jurnalda da yaxşı bir yazı getsin. Mən bilən sənin Rəsul müəllimlə tanışlığın vardı, yəqin ki, ötən günlərə duyğusal bir səyahət pis olmazdı, o böyük şairlə bağlı xatirəni dilə gətirib, yazıya köçürsəydin, növbəti sayımızda çap edərdik, oxucularımız da məmnun olardı..."**

ləyən həyati, son dərəcə səmimi, inandırıcı şeirləri bəxş eləmişdi.

Təzəcə əlinə qələm alan bir həvəskarın, orta məktəb şagirdinin poema yazmaq həvəsi nə qədər sadəlövh və gülməli görünsə də rəhmətlik atam Məlik müəllim məni həvəsləndirmişdi: "Madam ki, bu arzuya düşmüsən, yaz, yaz görüm yazdıqların özünə xoş gələcəkmi?"

Mən o "poema"nın bir neçə fəslini yazdım və axırda dərk etdim ki, götürə bilməyəcəyim bir yükün altına girmişəm və yazdıqlarımı öz əllərimlə yandırmalı oldum.

Rəsul Rza poeziyasından aldığım enerji, bədii güc mənim uşaq romantikamı xeyli vüsətləndirmişdi, o "poema" üzərindəki 3-4 aylıq gərəksiz çabalarımın bəhrəsi o oldu ki, həqiqi poeziyanın nə olduğunu dərk etməyə başladım. Gördüm ki, qarşımda ağaran uzun yolların əzabı-ağrısı çox böyük olacaq, elə buna görə də yazmağa xeyli ara verdim.

Hələ orta məktəbdə oxuyarkən yazdığım şeirlər ara-sıra Gədəbəydə çıxan "Tərəqqi" qəzetində çap olunurdu. Onu da deyim ki, şagird olduğum illərdə Rəsul Rzanın başqa kitabları ilə də tanış ola bilmişdim. Şeirlərindəki fəlsəfi qatları atam mənə izah edirdi. "Oğlum, - deyirdi, - sən Rəsul Rzadakı sətiraltı mənaları duymağa, anlamağa çalış. O, tamamilə fərqli bir şairdir. Onun poeziyası ilə ünsiyyətin qoy davam etsin."

..., Aradan neçə il keçdi. Mən orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin axşam şöbəsinə qəbul olundum.

Şəhərdə iş axtarırdım, gəzə-gəzə Rəsul Rzanın baş redaktor işlədiyi Azərbaycan Ensiklopediyasına çıxdım. Rəsul müəllimin qəbul otağında çox gözləmədim. Rəsul müəllim məni içəri dəvət elədi. Yanında yazıçı Bayram Bayramov əyləşmişdi. "Hə, oğul, buyur, görüm nə istəyirsən, niyə gəlmisən?"

"Rəsul müəllim - dedim, - ADU-nun tələbəsiyəm, iş axtarıram, bəlkə sizdə bir münasib iş ola..."

Rəsul müəllim xeyli məni süzdü, sonra gülümsər bir şəkildə:

"Oğul, - dedi, - bizdə heç universiteti bitirənlərə iş yoxdur, o da ola tələbə. Get, oxu, universiteti bitir, gəl yanıma bax bu gördüyün kişi yazıçı Bayram Bayramovdur. Onun yanında sənə söz verirəm ki, bu cəsarətinə görə (yəqin onun qəbuluna sərbəst gəlməyimi və Ensiklopediyada işləmək cəsarətimi nəzərdə tuturdu) səni işə götürərəm. Təki sağlıq olsun. Sən çalış, oxu. "

Rəsul müəllimin otağından çıxanda qan-tərin içindəydim. Ancaq qürurumdan özümə sığmırdım. Zarafat deyildi, Rəsul Rza kimi böyük bir şair o boyda yazıçının şahidliyi ilə söz vermişdi ki, məni işə götürəcək.

Elə həmin gün mən İncəsənət muzeyinə gəldim, rəhmətlik xalq rəssamı Kazım Kazımzadənin qəbuluna düşdüm və muzeydə fəhlə kimi əmək fəaliyyətinə başladım. Kimlərinsə yanında söhbət işdən düşəndə deyirdim ki, tələbəlik illərində muzeydə işləyəcəm, universiteti qurtarandan sonra Ensiklopediyada Rəsul Rzanın yanında yerim hazırdır.

Mən universiteti bitirəndə artıq Rəsul müəllim Ensiklopediyada işləmirdi. Onun nəşr etdiyi ensiklopediyanın I cildi o zaman yığışdırılsa da, ən şərəfli, ən namuslu bir ensiklopediya idi. Onun bir nüsxəsi ilə tanışlıq yaxın bir qohumumun vasitəsi ilə mənə də qismət olmuşdu.

Rəsul Rza şərəfli bir yaradıcılıq, mənalı bir ömür yolu keçib gəlmişdi. Sovet DTK-sının "dovşanı araba ilə tutduğu" bir vaxtda o, heç nədən qorxub-çəkinmədən belə milli ensiklopediya çap etməyə nail olmuşdu. Keçən əsrin 80-ci illərində Məmməd Əfəndiyev (Sultan Məcid Əfəndiyevin qardaşı oğlu) mənə danışırdı ki, Rəsul kino naziri (bu ifadəni onun dediyi kimi işlədirəm) olanda mən onun müavini idim, Mərkəzi Ko-

mitədə şəxsən M. C. Bağırovun sədrliyi ilə keçən müşavirələrdə o, hər hansı bir haqsızlığa qarşı etirazını bildirir, haqlı olduğu üçün qorxub-çəkinmirdi.

Rəhmətlik Məmməd Əfəndiyev S. Vurğundan, Aleksandr Fadeyevdən və Rəsul Rzadan maraqlı xatirələr danışardı. O dövrün amansızlığı gözlərim önündə canlanardı. Oğul, - deyərdi - şəxsiyyət həqiqi şəxsiyyət olanda onu heç bir represiya qorxusu, heç bir basqı pəsindirmir.

Bax, Rəsul Rza belə bir şəxsiyyət idi.

1971-ci ildə Rəsul Rzanın 60 illiyi ərəfəsində mən radioda əməkdaşlıq edirdim. Ədəbiyyat redaksiyasının baş redaktoru Rauf İsmayılovun təşəbbüsü ilə Rəsul müəllimə həsr olunan yubiley verilişində filologiya fakültəsinin tələbəsi kimi mən də çıxış etdim. Yazdığım çıxışın mətnini oxuyan Cəlal Bərgüşad - Ə, qağa, sən hazır Rəsulşünassan ki - demişdi və mən bu sözlərdən hədsiz sevinc duymuşdum. O çıxışdan sonra elə güman edirdim ki, Rəsul müəllim məni yanına çağırtdıracaq və mən də fürsət tapıb deyəcəyəm ki, Rəsul müəllim, mən həmin oğlanam, sizdən iş istəyən oğlan, filologiya fakültəsinin tələbəsi. Yadına salmaq üçün deyəcəyəm ki, Bayram Bayramovun yanında mənə söz vermisiniz ki, işə götürəsiniz, mən universitetdə əlaçı oxuyuram.

Əfsus ki, nə Rəsul müəllim məni yanına çağırtdırdı, nə də o sözləri deyə bildim.

Universitetdə oxuduğum illərdə Hüseyn Hüseynzadənin (Hüseyn Arifin) "uğurlu yolu" ilə ədəbi ictimaiyyətdə təqdim olundum. Respublikamızın dövri mətbuatında tez-tez şeirlərim dərc edildi, radio və televiziya verilişlərinə qatıldım və demək olar ki, əməlli-başlı tanınmağa başladım. Xüsusən, Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" və "Ulduz" jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzetində imzam vaxtaşırı görünməyə başladı.

Universiteti bitirəndən sonra xeyirxahlarımın (İlyas Tapdıq, Bəxtiyar Vahabzadə, Abbas Zamanov) köməyi sayəsində "Gənclik" nəşriyyatına redaktor düzəldim və bu nəşriyyatda işləməyim mənim yaradıcılıq imkanlarımın artmasına, genişlənməsinə güclü təkan verdi. Hər şeydən əvvəl şair və yazıçılarımızla şəxsən tanış olmaq, ünsiyyət qurmaq, dostluq eləmək fürsəti qazandım. Bu imkan yaradıcılıq yollarında təzəcə addımlayan gənc bir şair üçün, imzasını təzə-təzə tanıtmağa başlayan Musa Ələkbərli üçün göydəndüşmə bir fürsət idi.

Mən əvvəlcə elmi-kütləvi, sonra da bədii ədəbiyyat redaksiyasında çalışmağa başladım. Bir il keçmiş, yəni 1975-ci ildə Rəsul Rzanın təşəbbüsü və redaktorluğu ilə "Sabir poeziya günləri" adlı almanax nəşr olundu. Yadımdadır, o almanaxa mənim də şeirimin daxil edilməsinə əvvəlcə razı olmadılar. Nəşriyyatda işləməyimi, özü də təzə işçi olmağımı buna səbəb saydılar. Sonra dedilər ki, yaxşı bir şeirini sal, onsuz da Rəsul müəllim bu almanaxı özü oxuyub redaktə edəcək. Xoşuna gəlməyən yazıları onsuz da verən deyil.

Rəsul müəllim o almanaxı tez bir zamanda redaktə etdi və "Başlanğıc" adlı bir ön söz də yazdı.

Mən bu gün də o böyük şairin ruhuna minnətdarlıq etməyə borcluyam ki, ön sözündə önə çəkdiyi, öydüyü 5-6 şairdən biri də mən idim. Rəsul müəllim mənim "Sizin küçəniz" adlı məhəbbət şeirim haqqında yazırdı:

"Nə qədər mübaliğəli olsa da söz yerinə düşəndə onun təsir qüvvəsi qat-qat artır.

Fikir aydın olanda söz yerinə düşür, mübaliğə nə qədər gözlənilməz olsa da təbii görünür. Musa Ələkbərlinin "Sizin küçəniz" şeirində belə sətirlər var:

***Sizin pəncərədən süzülən işıq***
***Üzümdə, gözümdə təbəssüm olub...***
***...Qoy kimin xətrinə dəyirsə dəysin,***
***Sizin küçəlidir bütün gözəllər.***

Belə şuxluqla deyilmiş sözlər məhəbbət lirikasının sonsuz çalarından, imkanından nümunədir."

Bundan sonra işlədiyim nəşriyyatda mənim şeirimə, sözümə saygı ilə yanaşmağa başladılar.

Nəşriyyatımızın direktoru Əzizə Əhmədova mənim barəmdə söz düşəndə həmişə deyirdi ki, Musa Ələkbərlinin şeiri Rəsul müəllimin xoşuna gəlibsə, o, həqiqətən yaxşı şairdir. Elə bu almanaxdan sonra mənim kitablarım nəşriyyatımızın tematik planına maneəsiz daxil edilməyə başladı. Bax, orta məktəb illərindən Rəsul Rza yaradıcılığına olan sevgimi tanrı Rəsul Rza qələmindən çıxan beş-altı kəlmə ilə, üç-dörd qiymətli, mənim üçün o zaman olduqca qiymətli cümlə ilə özümə qaytarmışdı. Rəsul müəllimi nəşriyyatımızda bir neçə dəfə görsəm də ona yaxınlaşmağa, minnətdarlığımı bildirməyə cürət eləməmişdim. Sözün düzü, bu barədə heç düşünmürdüm də. Olduqca utancaq idim. Gərək buna şərait yaranaydı, fürsət düşəydi.

1976-cı il idi. Qələm dostumuz Çingiz Əlioğlu da bizim nəşriyyatımıza işə düzəlmişdi. Bir dəfə Çingizlə tənəffüs vaxtı İçərişəhərdə birgə nahar edirdik. Birdən Çingiz qəfildən: - Musa, yediyimiz bəsdir, dur tez qaçdıq, tamam unutmuşdum, bu gün Rəsul müəllim Politexnik İnstitutunda cavan şairləri təqdim edir. Mən artıq saat 3-ə işlədiyini, yəni həmin məclisə gecikməyimizi, həm də özümün Rəsul müəllimlə şəxsən tanış olmadığımı bəhanə edib getmək istəmədim.

Ancaq, Çingiz: - Musa, sən nə danışırsan, Rəsul müəllim nəinki səni, hətta ilk şeirini dərc etdirən hər hansı gənci də tanıyır. Rəsul müəllim kimi ədəbi gəncliyə həssas ikinci bir ağsaqqal şairimiz yoxdu. Gedək özün də bunun şahidi olacaqsan. Biz bir taksiyə oturduq, beş-on dəqiqəyə Politexnik İnstitutuna çatdıq. Akt zalı başdan-başa dolu idi, hətta ayaqüstə dayanan tələbələr də vardı. Rəsul müəllim rəyasət heyətində əyləşmişdi, cavan şairlər də arxa cərgədə sıra ilə əyləşmişdilər. O zamankı gənc şairlər: Vahid Əziz, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Rüzgar Əfəndiyeva və başqaları.

Çingiz birbaşa ora - dostlarının yanına qalxdı, mən aşağıda ayaqüstə özümə yer eləmişdim ki, Rəsul müəllim əlinin işarəsi ilə məni də fəxri kürsüyə çağırdı.

Mən ona göz qoydum, heç bir kəsdən heç nə soruşmadan əyləşən kimi mənə söz verdi.

- İndi də gözəl lirik şeirlər müəllifi Musa Ələkbərliyə söz verirəm.

Mən həyəcanla kürsüyə qalxdım. "Səni sevənlər" adlı bir məhəbbət şeiri oxudum, zal məni alqışladı. Kürsüdən düşmək istəyirdim ki, Rəsul müəllimin qürur təlqin edən amiranə səsini eşitdim:

- Birini də oxu!

İkinci şeiri də oxudum. Qayıdıb yerimdə əyləşdim. Çingiz Əlioğlu pıçıltı ilə:

- Hə, Musa, gördün, Rəsul müəllim səni səndən də yaxşı tanıyır.

Bütün bunları xatırladıqca o böyük insana, təkrarsız şairə mənən borclu olduğumun bir daha fərqinə varıram.

Artıq əsrin zirvəsinə yüksələn Rəsul yaşı (Şairlər ölmür ki, cismani ölüm şair üçün ölmək sayılmır.) Rəsul poeziyasının ölməzliyi üstündə boy göstərir. Bəli, Rəsul Rza zamanın karvanına qoşulan ölməz şairimizdir. Sovet imperiyasının kəshakəs vaxtında "Azaddır milyonlar azadlıqdan" deyən şair sağlığında bu milyonların qəlbinə köçməyi bacardı.

Məqsədim Rəsul Rzanı öymək deyil, yüz ilin başında heç onun buna ehtiyacı da yoxdur. Mən sadəcə onunla bağlı xatirələrimi dilə gətirmək istəyirəm.

Bir dəfə də gərək ki, 1978-ci ilin 8 Mart günü idi. Nəşriyyatımızda çoxluq təşkil edən xanımlarımıza bayram süfrəsi açıb, yaxşıca yeyib-içmişdik. Birdən direktorumuz Əzizə Əhmədova daxili telefonla məni kabinetinə çağırdı. Mən tələsik gəldim və Əzizə xanımın otağında Rəsul müəllimi gördüm. Bu dəfə Rəsul müəllimlə yaşıma uyğun olmayan bir ərklə görüşdüm, əlini sıxdım. Əzizə xanım:

- Musa, - dedi, - Rəsul müəllim sağ olsun, hər bayramda gəlib məni şəxsən təbrik eləyir. Şəkərə görə bir az nasazlayıb. Onu evinə qədər ötür. Sevincimin həddi-hüdudu yox idi. Əlimə fürsət düşmüşdü. Bir az içməyim də əvvəlki çəkincəkliyimi demək olar ki, yoxa çıxarmışdı. Tam sərbəst idim. Deməli, bu qədər yolu Rəsul müəllimlə birgə addımlayacaq, onunla doyunca söhbət edəcəkdim.

Açığını deyim ki, Politexnik İnstitutundakı o görüşdən sonra Rəsul müəllim mənim üçün ən doğma adam idi və mənə elə gəlirdi ki, bu şəhərdə ən böyük arxam-dayağım Rəsul müəllimdir. Dilim əməlli-başlı açılmışdı. Başladım, nə başladım. Rəsul müəllimin yaradıcılığındakı sətiraltı mənaları Rəsul müəllimə böyük şövq və ilhamla xırıd edirdim. Rənglər silsiləsi, imperializm silsiləsindən olan şeirləri, "Bir gün də insan ömrüdür" poeması, oradakı mətləblər, mənalar mənim təbirimlə, mənim yozumumla, daha doğrusu, duyduğum, dərk etdiyim kimi çözələnib gedirdi. Rəsul müəllim məni məmnunluqla dinləyirdi. Mən bu məmnunluğu duyduqca daha da ilhamlanırdım.

- Rəsul müəllim, biz gənclər yaxşı bilirik ki, siz imperializm deyəndə Sovet İttifaqını nəzərdə tutursunuz, böyüklüyünüz, ustadlığınız ondadır ki, bu şeirləri səfər şeirləri kimi təqdim edir, məkanını dəyişməklə bu boyda ağırlığın, yükün altından çıxmağı bacarırsınız. Rəsul müəllim, bax sizin böyüklüyünüz burdadır.

Biz artıq nəşriyyatdan çıxıb "Parapet" bağının ayaq tərəfində olan "Nərgiz" kafesinə çatmışdıq ki, arxamca qışqıran Məmməd Namazın səsini eşitdim. Arxaya boylananda o, dayanmağıma işarə edib Rəsul müəllimi gözlətməmək üçün özü qaça-qaça bizə çatdı və məni kənara çəkib ərkyana: - Ə, vicdansız, bu xəstəhal kişini niyə yüyürdürsən? Bir az asta getsənə.

Mən səhvimi başa düşüb möhkəm tutuldum. Elə bil Məmməd başımdan bir vedrə soyuq su tökmüşdü. Bədənimə soyuq tər gəldi, Rəsul müəllim kefimin pozulduğunu görüb əvvəlcə Məmmədlə maraqlandı. Mən uşaq şairi, iş yoldaşım Məmməd Namazı ona təqdim etdim. Rəsul müəllim: - Musa, - dedi, - yaxşı, bu uşaq şairi Məmməd kənara çəkib sənə nə dedi ki, sən belə tutuldun?

Mən Rəsul müəllimdən heç nəyi gizlətmədim, Məmmədin təklikdə mənə dediyini olduğu kimi ona çatdırdım. Rəsul müəllim güldü:

- Məmməd, qayğıkeşliyinə görə çox sağ ol, ancaq Musa elə saf, elə təmiz oğlandır ki, mən bu xəstə ayağımla da onunla cıdıra çıxmağa hazıram.

Mən Məmməd Namazı da söhbətə qatmaq üçün, -

Məmməd, - dedim, - mən Rəsul müəllimə Rəsul müəllimin poeziyasından danışıram, onun Ezop dilinin biz gənclər üçün tam anlaşıqlı bir dil olduğundan söhbət açıram.

Məmməd də söhbətə qoşuldu və çox qəribə idi ki, mənim dediklərimi və demədiklərimi özünəməxsus şəkildə, bir az loru və daha təbii söyləməyə başladı. Rəsul müəllim dedi siz bu hökumətin atasını yandırmısınız, adicə bir dananı da insandan üstün tutan bir hökumətə bu da azdır. İkimiz də ağız-ağıza vermişdik, Rəsul müəllimin poetik qüdrətini, böyüklüyünü, əzəmətini, onun özünə çatdırmaq istəyirdik. Rəsul müəllim əməlli-başlı təsirlənmişdi.

Bəlkə də bizdən - ənənə üstündə yazıb-yaradan cavan şairlərdən bunu gözləmirdi. Onun poeziyasını bu qədər izləməyimiz, bütün incəliklərinə qədər irdələməyimiz Rəsul müəllimi doğrudan da kövrəltmişdi. O, bizim ikimizi də təkidlə evə dəvət etdi. Biz Rəsul müəllimdən üzr istəyib, Yazıçılar İttifaqında iş yoldaşımız, şair Məstan Əliyevin uşaq kitabının müzakirəsinə gedəcəyimizi bildirib ondan ayrıldıq.

Bu söhbətdən sonra artıq Rəsul müəllim məni çox yaxşı tanıyırdı. Nəşriyyatla bağlı bir işi olanda, yazıpozu göndərmək istəyəndə evlərinə mən gedirdim. Özü belə istəyirdi. Bir dəfə də mühasibatlığa zəng vurub, hansı almanaxdasa çap edilən qonorarının mənimlə göndərilməsini xahiş edib. Baş mühasibimiz Bikə bacı (Biz hamımız onu belə çağırırdıq) Rəsul müəllimin və Nigar xanımın imza atacağı mühasibatlıq kağızını və hər ikisinin pulunu hesablayıb mənə verdi.

Mən heç pulu saymadan bükülü şəkildə cibimə qoyub Rəsul müəllimgilə getdim. Heç beş dəqiqə keçməmişdi ki, Rəsul müəllimin qapısının zəngini basdım. Rəsul müəllim qapını özü açdı, məni salamlayıb əyləşməyimi təklif etdi. Mən işə tələsdiyimi deyib elə ayaqüstü həm Nigar xanıma, həm də Rəsul müəllimə apardığım kağıza imza atdırıb cibimdəki pulu verdim və tez də xudahafizləşib çıxdım.

Günortaya yaxın idi. Yolumu həmişə çörək yediyim bir kafedən saldım. Tələsik yeməyimi yeyib pulunu ödəmək istəyəndə cibimdən iki dəmir manatlıq çıxdı. Hövlləndim, axı mənim dəmir manatlıqlarım yox idi. Deməli bu manatlıqlar Rəsul müəllimin pulundan düşüb. Mən də heç fərqinə varmadan, pul bükülüsünü saymadan çıxarıb stolun üstünə qoymuşam. Rəsul müəllim və Nigar xanım imza atanda mən məbləği ucadan oxumuşdum.

Yəni bilsinlər ki, gətirdiyim pul nə qədərdir. Az qala dəli olacaqdım. Dəmir manatlıqlar əlimdə təzədən Rəsul müəllimgilə yollandım. Bu dəfə qapının zəngini nə qədər çaldım, açmadılar. Ancaq mən qapının açılmasına israrlı olduğumdan azca ara verib zəngini yenidən basırdım. Bir müddət mənim bu höcət, ardıcıl zəngim davam etdi. Axır ki, qapının arxasından Rəsul müəllimin bir az acıqlı, bir az ötkəm səsi gəldi:

- A bala, kimsən? Nə istəyirsən?

Mən bərkdən:

- Rəsul müəllim, mənəm, Musa Ələkbərliyəm, gətirdiyim qonorarla bağlı sizə sözüm var. Xahiş edirəm, qapını açın!

Rəsul müəllim qapının cəftəsini azca araladı, məni görüb tanıyandan sonra qapını taybatay üzümə açdı.

- Rəsul müəllim, - dedim, - bağışlayın, sizi narahat eləmişəm, bax bu dəmir manatlıqlar sizin bükülü pulunuzdan düşüb qalıb cibimdə...

Rəsul müəllim təəccüb və heyrət dolu bir baxışla məni süzdü və qucağına sıxdı:

- Ə sən nə təmiz oğlansan, məni yuxudan oyatsan da, Nigar xanımı həyəcana, qorxuya salsan da keç əyləş, səninlə bir çay içib söhbət eləmək istəyirəm.

Artıq mənim etirazım faydasız idi, Rəsul müəllim çiynimdən ərklə basıb məni stulda əyləşdirmişdi. Özü də mənimlə üzbəüz əyləşdi.

Nigar xanım hər ikimizə çay gətirdi. Mən həyəcanlı olsam da, elə bil üstümdən ağır bir dağ götürülmüşdü. Rəsul müəllim bu dəfə mənimlə əməlli-başlı maraqlandı. Harada doğulmağımdan tutmuş Bakıda necə yaşamağıma qədər sorğu-sual etdi. Bəzi suallara çox çəkincək cavab verirdim.

Sözün düzü, bu mərhəmlikdən xəcalət hissi keçirirdim. Axı, bu təkrar görüş mənim səhvim ucbatından baş vermişdi.

Rəsul müəllim: - oğul, sənin kimi saf, ləyaqətli uşaqların ədəbiyyata gəlməyi çox yaxşıdır - dedi. Evimizin telefonunu bilirsən, gəlməmişdən əvvəl zəng çal, xəbərdarlıq elə, sənin gəlməyini bilim...

**Ötüb keçən bu illər ərzində ürəyimdə bir qürur hissi yaşayıb. Mən Azərbaycanın böyük şairi, Sosialist Əməyi qəhrəmanı, dünyanın bir çox ölkələrində sayılıb-seçilən, adı hörmətlə çəkilən Rəsul Rza ilə şəxsən tanış idim.**

**Nəhayət, sözümün sonunda 1998-ci ildə Rəsul müəllimə həsr etdiyim "Şeirimizin tut ağacı" adlı şeirimlə xatirəmi tamamlamaq istəyirəm:**



*Ömrün boyu*
*Ürəyini günəşə sərdin.*
*Anlamaq dərdiydi,*
*Anlatmaq dərdiydi*
*Ən böyük dərdin.*
*Bir gün də insan*
*ömrüdür,*
*Elə bircə saat da.*
*Bax, bu düşüncələrlə*
*Yaşadın həyatda!*
*Hamı kimi yazmadın,*
*Hamıya çatmadın.*
*Daşın ən ağırından*
*yapışdın*
*Sözün ən kəsərlisini,*
*Ən doğrusunu dedin*
*Kimsəni aldatmadın!*
*Bu düzdür ki, həqiqət*
*acı olur,*
*Ancaq insan ən son anında,*
*Ən çətin məqamında*
*Yalnız düzün, doğrunun*
*möhtacı olur...*
*Hamıya çatmamağın*
*Hamıya yanmağından oldu,*
*Bu günə acımağından,*
*Dünəni anmağından oldu.*
*Böyük dərdimizi görəndə*
*Böyük qardaşları*
*Yolumuza çəpər olan*
*Sarı iblisləri,*
*Qara daşları*
*Danmağından oldu.*
*Ömür qıyıb öydüyün*
*Dahinin yalançı şöhrətini*
*Sezdiyin gündən*
*Qara bir xətt çəkdin*
*Keçdiyin qırmızı yolların*
*üstündən.*
*"Azadam" deyə-deyə*
*azadlıqdan azad olanların,*
*dünyadan xəbərsiz yaşa*
*dolanların*
*Torpağı girovların,*
*sərvəti talanların*
*faciəsinə üz tutdun.*
*Demək istədiklərin*
*İti bir bıçaq kimi*
*Boğazına dirənib*
*Səni çəkəndə dara*
*Üz tutdun yerə, göyə,*
*dünyaya,*
*Dünyadakı ağlı-qaralı*
*insanlara.*
*"Ehey" nidası qopdu*
*dilindən*
*yayıldı planet boyu,*
*ömrün boyu yandırdı səni*
*bu millətin yasaq olunmuş*
*tarixi,*
*başqa köklərə*
*yamaq olunmuş kökü,*
*əsli-soyu!*
*İmperiyanın kəshakəs*
*vaxtında*
*Ezop dilini seçdin,*
*Yazmağa bu xalqın*
*Dərdini, nisgilini seçdin.*
*Sarı danaya göz yaşı*
*Tökdürənlər*
*Biganə qalanda*
*İnsan fəryadına, qəminə*
*Hər şeyi öz rəngində*
*görmək*
*İstədin.*
*Hər şeyi öz çalarında*
*Vermək istədin.*
*"Rənglər" duyğusuyla*
*qovuşdun*
*düşüncələr aləminə.*
*"Bolşevik yazı"ndan,*
*sürgün xofundan,*
*qarlı Sibirin şaxtasından,*
*ayazından keçib gəlmişdin.*
*Öz otağın özünə məhbəs,*
*Öz köynəyin özünə*
*qəfəs idi.*
*Bir də nə Sibir,*
*nə Sürgün?!*
*37-dən bəri çəkdiklərin*
*sənə bəs idi...*
*Sözlərin bıçaq kimi*
*Kəsirdi,*
*Qırıq-qırıq kəlmələrin*
*Tikə-tikə doğrayırdı*
*Haqsızlığı...*
*Xoşlamırdın*
*Yalançı təbəssümü,*
*Riyakar qılığı...*
*...Sən şeirimizin*
*tut ağacısan*
*varlı, bərəkətli,*
*Misraların sünbül tək*
*Dopdolu,*
*Oynaq, ritmik, hərəkətli...*
*Sən şeirimizin*
*Tut ağacısan,*
*Kimlərəsə acılığından*
*Şirinsən,*
*Kimlərəsə şirinliyindən*
*Acısan.*
*Kölgən bu qədər əhatəli,*
*Bu qədər geniş olmasaydı*
*Bu qədər qılınclanmazdı.*
*O şeirləri ki, sən yazmısan,*
*O sözləri ki, sən demisən*
*Vallah, bu da sənə azdı...*
*Səni nə qədər*
*Çırpdılar,*
*Silkələdilər,*
*Gördülər yenə də*
*budaqların*
*Dopdoludur.*
*Selbə atanların*
*Bircə şeyi hələ də*
*bilmir ki,*
*Yolun tarixin yoludur,*
*Əbədiyyətin*
*yoludur.*

*18.04.1998*